**Flora Nəriman qızı Bayramova,**
Bakı şəhəri, Nizami rayonu, 113 nömrəli körpələr evi-uşaq bağçasının müdiri

# MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİ

**Флора Нариман кызы Байрамова,**
заведующая детского сада-дома малютки № 113, Низаминского района города Баку

# ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

**Flora Nariman Bayramova,**
head of the kindergarten-kindergarten 113, Nizami district, Baku

# SCHOOLS IN EDUCATIONAL ORGANIZATIONS ECOLOGICAL EDUCATION OF CHILDREN

**Xülasə:** Məqalədə məktəbəqədər müəssisələrdə uşaqların ekoloji tərbiyəsindən söhbət gedir. Qeyd olunur ki, ekoloji tərbiyə uşaqların şəxsiyyətinin hərtərəfli inkişafına, formalaşmasına xidmət edən mühüm amillərdəndir. Məqalədə həmçinin uşaqların ekoloji tərbiyəsi sahəsində müəssisədə həyata keçirilən tədbirlərdən, onların meyvə bağında, bostanda gördükləri işlərdən, yaratdıqları "ekoloji cığırdan", "quş mətbəxi"ndən danışılır. Qeyd olunur ki, məqsəd Azərbaycanın gələcəyi üçün hərtərəfli formalaşmış, xalqa, dövlətə, cəmiyyətə yararlı insan yetişdirməkdir.
***Açar sözlər:*** *ekoloji tərbiyə, şəxsiyyətin inkişafı, təbiətə sevgi, "ekoloji cığır", "Qırmızı kitab", "quş mətbəxi", nağıl personajları*

**Резюме:** Статья посвящена экологическому воспитанию детей в дошкольных учреждениях. Отмечается, что экологическое воспитание является одним из важных факторов, способствующих всестороннему развитию детской личности. В статье также рассказывается о мероприятиях, проводимых на предприятии в области экологического воспитания детей, об их работе в саду, в огороде, о «экологической тропе» и «птицьей кухне». Отмечается, что целью является воспитание полноценного гражданина для народа, государства и общества будущего Азербайджана.
***Ключевые слова:*** *экологическое образование, развитие личности, любовь к природе, «экологическая тропа», «красная книга», «птичья кухня», сказочные персонажи*



**Summary:** The article is devoted to the environmental education of children in preschool institutions. It is noted that environmental education is one of the important factors contributing to the comprehensive development of the child's personality. The article also tells about the activities carried out at the enterprise in the field of environmental education of children, about their work in the garden, in the garden, about the "ecological trail" and "bird kitchen". It is noted that the goal is to educate a full-fledged citizen for the people, state and society of the future of Azerbaijan.
***Key words:*** *environmental education, personality development, love of nature, "ecological path", "red book", "bird's kitchen", fairy-tale characters*

**"Mən istəyirəm hamınız təbiəti qoruyanlar olasınız.Təbiətə zərər vuranlar,ağacları kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir."**

**H.Əliyev**

Ekoloji tərbiyə təlim-tərbiyə prosesinin mühüm komponentlərindən biri, təbiətə, ekologiyaya münasibətdir. Ekoloji tərbiyə uşaqların əqli, fiziki, estetik, mənəvi-əxlaqi tərbiyəsi olmaqla yanaşı,



onlara Vətənə, torpağa məhəbbət, onun təbii sərvətlərini qorumaq hisslərini aşılamaq deməkdir. Təbiətə məhəbbət, qayğı uşaqların şəxsiyyətinin hərtərəfli inkişafına, formalaşmasına xidmət edən mühüm amillərdəndir. Onun düzgün aparılmasını şərtləndirən əsas məsələlərdən biri ekoloji tərbiyənin əvvəlcə ailədə başlanması, sonra isə məktəbəqədər tərbiyə müəssisələrində davam və inkişaf etdirilməsidir.Uşaqların ekoloji tərbiyəsi ailə ilə uşaq bağçasının, cəmiyyətin sıx təması üzərində qurularsa, bu istiqamətdə səmərəli nəticələr əldə etmək olar, çünki uşaqlar təbiətə münasibəti ilk dəfə ailədə, uşaq bağçasında, daha sonra isə ətraf mühitdə müşahidə edirlər. Uşağın həyatı kiçik yaşlarından yaşadıqları məkanın, binanın həyətində, tərbiyə olunduqları uşaq bağçasının həyətyanı sahəsində oyunlarla, yaşa uyğun əməklə, maraqlı və mənalı keçir. Uşaqlar ətraf mühitdə nəyi müşahidə edirlərsə, onu yaddaşlarına köçürürlər.

Ekoloji tərbiyəni uşaqlara elə aşılamaq lazımdır ki, onlar təbiətlə münasibətdə düzgün və yanlış davranışı başa düşsünlər. Təbiətlə amansız davrananlara, ona zərər yetirənlərə, ağacları kəsənlərə,yerə tullantı atanlara qarşı gözüaçıq, mübariz olsunlar.Təbiətin gözəlliyini, sərvətlərini qorumağı həm özləri bacarsınlar, həm də başqalarına aşılasınlar. Uşaqları bu bacarıq və vərdişlərə yiyələndirmək vacibdir. Onlar məktəbəqədər dövrdən bilməlidirlər ki, nə üçün təbiəti qorumaq və onun qayğısına qalmaq lazımdır? Buna görə də uşaq bağçasında təbii sərvətlərin əhəmiyyətini onlara izah etməklə yanaşı, təbiətə qayğı hissi də aşılanmalıdır.

Uşaqlarda təbiətə sevgi, rəğbət yaratmaq, təbiətin keşiyində durmağı, onun gözəlliyindən zövq almağı öyrətmək, bu sahədə dünyagörüşünün yaradılmasında kömək göstərmək, müsahibələr təşkil etmək məktəbəqədər tərbiyə müəssisələri əməkdaşlarının qarşısında duran vəzifələrdəndir, fəaliyyətlərinin mühüm bir hissəsidir. Uşaqlar bağçada torpaq, su, hava, meşə, bitki və heyvanlar – ümumiyyətlə, bütün canlılar aləmi haqqında yaşlarına uyğun biliklərə yiyələnməlidilər. Oyun və yataq otağında havanı təmiz saxlamağın əhəmiyyətini dərk etməlidilər. Onları sadə dildə başa salmaq lazımdır ki, təbiətdə tarazlığın pozulması insanların sağlamlığı üçün fəlakətdir.

Yetişməkdə olan gənc nəslin ekoloji tərbiyəsi bəşəriyyətin qlobal problemidir. Uşaqlar bizim gələcəyimiz, dövlətin, Vətənin gələcək idarəediciləridir.

Rəhbərlik etdiyim Bakı şəhəri, Nizami rayonundakı 113 nömrəli məktəbəqədər təhsil müəssisəsinin pedaqoji kollektivi uşaqların ekoloji tərbiyəsinə diqqətlə yanaşır, onun zamanın, dövrün tələblərinə uyğun qurulmasında ciddi səy göstərirlər. Ekoloji tərbiyə ilə bağlı məşğələlər üçün uşaqların yaş səviyyələrinə uyğun mövzular seçilir. Azərbaycanın fauna və florası haqqında, təbiətə məhəbbət, qayğıkeş münasibət ruhunda tərbiyə olunmaları üçün məlumatlar verilir. Təbiəti mühafizə istiqamətində tədbirlər həyata keçirilir, onu qorumağın yolları və vasitələri izah olunur. Təbiətlə rəftarın əsası – xeyirxahlıq, qayğıkeşlik, həssaslıq, əməksevərlik kimi əxlaqi keyfiyyətlər aşılanır.

Ekoloji tərbiyə təbiət hadisələri ilə sıx bağlıdır. “Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramı”nda ekoloji tərbiyədə təbiət hadisələrindən istifadə olunmasına geniş yer ayrılıb. Bu istiqamətdə məqsədli işlər görürük. Məşğələləri açıq hava şəraitində aparırıq. Bunu həyata keçirmək üçün bağçamızın geniş, potensial imkanları var. Uşaqlar təbiət hadisələri ilə bağlı biliklərə əyani şəkildə yiyələnirlər. Onlarla gecə-gündüz, küləyin əsməsi, yağışın,qarın yağması, günəşin çıxması, batması, şaxtalı hava, yerin buz bağlaması və s. əlaqədar söhbətlər aparılır. Bu hadisələrin səbəbləri, əhəmiyyəti sadə şəkildə izah edilir.

Uşaqları maraqlandıran sualları cavablandırırıq. Onları daha çox düşündürən qarın, yağışın necə əmələ gəlməsi, ağacların şaxtada, soyuq havada donub-donmaması və s. təbiət hadisələridir. Bu, uşaqların həssaslığını, qayğıkeşliyini, təbiət hadisələrinə qarşı laqeyd olmadıqlarını sübut edir.

Bağçadankənar gəzinti zamanı uşaqlara müşahidə etdikləri yaşıllıqların, müxtəlif ağac və kol bitkilərinin becərilməsi, onlara qulluq, park və xiyabanların salınması və s. haqqında məlumat verməklə yanaşı, əhəmiyyəti də izah edilir. Uşaqlar gördüklərini sərbəst nəql edir, müsahibə zamanı öz münasibətlərini bildirirlər.Bütün bu proses uşaqların yaş səviyyələrinə uyğun həyata keçirilir. Uşaqlara izah edilir ki, insanların sağlamlığı üçün havanın, ətraf mühitin təmizliyinin qorunması böyük əhəmiyyət kəsb edir. İnsanlar tərəfindən meşə zolaqlarının qırılması, otlaqların yandırılması, yaşıllıqların məhv edilməsi və s. həyat üçün təhlükə yaradır. Yaşıllıqlar havadan karbon qazını qəbul edib, ətraf mühitə təmiz oksigen qazı buraxır, zərərli maddələrin ətrafa yayılmasının qarşısını alır.

Biz ekoloji tərbiyəni əyani şəkildə həyata keçiririk. Uşaqların iştirakı ilə bağçamızın həyətyanı sahəsində əkdiyimiz, qoruduğumuz yaşıllıqlar, müxtəlif meyvə ağacları, güllər, bostan bitkiləri və s. buna imkan yaradır. Həyətyanı sahəmizdə qırmızı kitaba düşən Eldar şamı, qarağac, palıd, küknar, Xan çinar ağacları var. Çöl quşları – sərçə, göyərçin, qarğa, bildirçin bağçamızı özlərinə məskən seçiblər. Uşaqlar bütün bu quşları adları ilə tanıyır, onların xüsusiyyətlərini, vərdişlərini bilirlər.

Əmək və ona sevgi ekoloji tərbiyənin ana xəttidir. Əməyə məhəbbət hissi yaratmadan ekoloji tərbiyənin aşılanması mümkün deyil. Uşaqlar əməyi çox sevirlər. Quşları yemləyir, tərbiyəçilərlə birlikdə həyətyanı sahədə bitən ağaclara qulluq edirlər. Payızda müxtəlif ölçülü dibçəklərdə gül toxumları əkir, onun inkişafını izləyir, çiçəklənməsini görüb sevinirlər. Otaq bitkilərinin əkilməsi və onlara qulluq prosesində uşaqlar bitkiləri xarici görünüşlərinə görə tanıyır, yarpaq və çiçəklərinin formasını, rəngini hafizələrinə həkk edirlər. Bostanda müxtəlif tərəvəzlər (kartof, soğan, xiyar, pomidor, badımcan, kələm, kök, çuğundur, bibər və s.), göyərtilər (şüyüd, keşniş, nanə, turp və s.) əkib-becərir, alaq edir, suvarma işləri aparırlar. Bu işlər görülərkən kiçik qruplar böyük qrupları müşahidə edir, onlara kömək göstərirlər. Məhsul yığımında hamı iştirak edir. Uşaqların köməyi ilə məhsul yığılıb mətbəxə daşınır, onlardan hamı üçün nahar hazırlanır.




Bağçamızda quşların yemlənməsi üçün "quş mətbəxi" yaratmış, onlar üçün su qabları,yaşamaları üçün ağaclarda quş yuvaları quraşdırmışıq.Onları pişikdən, itdən qorumaq üçün 8 ədəd qəfəs düzəltmişik. Gecələr quşlar ağac budaqlarında yox, bu qəfəslərdə yatırlar. Bu da onları heyvanların hücumundan qoruyur.

Məşğələlərdə uşaqlar üçün təbiət mövzusunda yazılmış şeir, təmsil, hekayələr oxuyur (N.Gəncəvinin "İlin fəsilləri", A.Səhhətin "Sərçə və Qırğı", "Gün və Külək", M.Ə.Sabirin "Ağacların bəhsi", D.Dəmirlinin "Ayının dərdi", Ə.Hacızadənin "Lovğa dovşan" və s.), bədii qiraət saatları keçiririk.Qısametrajlı sənədli, bədii, cizgi filmləri nümayiş etdiririk.

Təbiət mövzusunda əsərlərin oxusu və filmlərin nümayişi ekoloji tərbiyə işinə güclü və səmərəli təsir göstərir. Uşaqlar təbiətin sehrli aləminə düşürlər. Bu, onlarda təbiətə məhəbbət hissini artırır. Düşdükləri sehrli aləmin – təbiətin füsunkarlığı, cazibədarlığı uşaqlara dərindən sirayət edir.

Biz hər dərs ilində uşaqların ekoloji tərbiyəsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçiririk. 2018/2019-cu tədris ilində də ekoloji tərbiyə mövzusunda Yer günü ilə əlaqədar "Ana təbiət,

bayramın mübarək!", "Ekoloji cığır", "Hər birimiz bir çiçək əkək!" devizi altında silsilə tədbirlər həyata keçirdik.Tədbirlərimizdə məktəbəqədər tərbiyə müəssisələri ilə əlaqədar qurumların məsul şəxsləri də iştirak edirdilər (AR Təhsil Nazirliyi, BŞBTİ, BŞİH, RİH və b.).

"Ekoloji cığır"ı bağçamızın həyətyanı sahəsində təşkil etmişdik.Yuxarıda qeyd etdiyim kimi, həyətyanı sahənin genişliyi, yaşıllığı, çeşid-çeşid ağaclar, kol bitkiləri, bostan, gül bağçası və s. buna imkan verirdi. "Ekoloji cığır"da aşağıdakı məzmunda stendlər hazırlayıb quraşdırmışdıq:

1."Ekoloji cığırd"a qaydalara uyğun davranmaq lazımdır.

2. "Ekoloji cığır"da hərəkət edərkən rast gəldiyiniz həşəratlara əl vurmaq olmaz.

3."Ekoloji cığır"da məişət tullantılarını yerə atmaq qadağandır.



"Ekoloji cığır"da vəhşi heyvanların (ayı, canavar, şir, pələng və s.), ev heyvanlarının (qoyun, quzu, at, keçi, inək, camış və s.), ev və çöl quşlarının (toyuq, cücə, xoruz, hind quşu, qaz, ördək, qarğa, qartal, durna və s.), müxtəlif ağac, kolların, meyvə və tərəvəzlərin, həşəratların maketlərini quraşdırmışdıq. Maketlərin önündə tərbiyəçi-müəllimlər hər bir canlının xarakterik xüsusiyyətləri, əlamətləri, onların təbiət, insanlar üçün faydalı olan cəhətləri haqqında məlumat verirdilər. Bununla yanaşı, uşaqlar maketlər vasitəsilə nümayiş olunan canlıları görür və yaddaşlarında caxlayırdılar.

Quraşdırdığımız nağıl səhnəcikləri də ("Qırmızıpaparaq", "Tülkü Həccə gedir", "Tıq-tıq xanım" və s.) qonaqlarımızın diqqətini cəlb etmişdi. Onlar bizim "Ekoloji cığır"ımızı maraqla izləyirdilər. Bütün bunlar uşaqların ailədə, ətraf mühitdə gördüklərini dərk etmələrinə, əhəmiyyətini anlamalarına kömək edirdi.

Beləliklə, məqsədimiz Azərbaycanın gələcəyi üçün hərtərəfli yetişib, formalaşmış, xalqa, dövlətə, cəmiyyətə yararlı insan yetişdirməkdir. Uşaqların məktəbəqədər müəssisələrdə ekoloji tərbiyəsi gələcəkdə onların vətənimizin ekoloji inkişafında fəallığına zəmin yaradır. Azərbaycan dövləti tərəfindən ekoloji tərbiyənin həllinə böyük diqqət göstərilir. Bunu sübut etmək üçün yazımı Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin aşağıdakı sözləri ilə bitirirəm:

"İnsanın yüksək səviyyəli həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbii mühitin qorunmasıdır. İnsanın sağlamlığı üçün ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik".

**Məqalənin elmi yeniliyi**. Məqalədə məktəbəqədər müəssisədə həyata keçirilən ekoloji tədbirlərdən ("ekoloji cığır", "quş mətbəxi" və s.) söhbət gedir. Uşaqların iştirakı ilə yaradılan bu gözəlliklər onların ekoloji tərbiyəsinə birbaşa təsir göstərir.

**Məqalənin praktik əhəmiyyəti**. Uşaqların öz əlləri ilə becərdikləri bostan bitkilərinin, meyvələrin uşaq bağçasının mətbəxində hazırlanıb, onların qidalanmasına sərf olunması həm uşaqlarda ekoloji təmiz məhsulların istifadəsindən yaranan sevinc hissinin, həm də əməksevərliyin, ekoloji tərbiyənin zəmini olur.

**Ədəbiyyat**

1. Bayramov M.R., Hacıyeva S.R., Qasımova Ş.Z. Ekologiyanın əsasları və təbiətin mühafizəsi. Bakı, 2004,
2.Ətraf muhitin muhafizəsi uzrə milli fəaliyyət planı.Bakı, 1998.
3.Sadıqov A.S., Xəlilov İ.B. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı, 2009, 268 s.

**Rəyçi: S.Rəhimova, p.ü.f.d.**
**E-mail:113saylı@mail.ru**
**Redaksiyaya daxil olub: 01.08.2019.**